Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

# 10 il







Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 10 illik yubiley tədbiri nazirliyin kollektivinin 2016-ci il yanvarın 29-da Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad etməsi ilə başlandı, sonra görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anıldı.








Daha sonra kollektiv və bu illər ərzində nazirliklə daim sıx əməkdaşlıq edən qurumların rəhbərləri, digər qonaqlar "JW Marriott Absheron Baku" mehmanxanasının Şərq zalına toplaşdılar. Mərasimdə Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev, AMEA-nın prezidenti Akif Əlizadə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Mikayıl Cabbarov və digər hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri iştirak edirdilər.

Cənab Əbülfəs Qarayev Azərbaycan mədəniyyətinin inkişafına göstərdiyi diqqət və qayğıya görə respublikanın 75 min nəfərlik mədəniyyət və turizm ictimaiyyəti adından dövlət başçısına minnətdarlığını bildirdi, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu istiqamətdə göstərdiyi müstəsna xidmətlərini xüsusi vurğulayaraq mədəni irsin qorunması, respublikamızda və dünya miqyasında təbliği sahəsində görülən işlərin yüksək əhəmiyyətindən danışdı:





"Azərbaycan öz zəngin mədəniyyəti ilə ölkəmizi dünyada tanıtmağa nail olmuşdur. Bütün uğurlar göz qabağındadır. Bugünkü tədbir də nazirliyin fəaliyyətinin 10 illik qısa hesabatıdır. Son 10 ildə bu istiqamətdə 500-dən çox fərman və sərəncam imzalanıb, dövlət proqramları qəbul olunub. Mədəniyyət və turizm sahələrində peşəkarlığı ilə seçilən 836 nəfərin fəxri ad və mükafatlara layiq görülməsi, ötən illər ərzində səmərəli fəaliyyətinə görə 183 əməkdaşın nazirliyin kollegiyasının qərarı ilə "Fəxri mədəniyyət işçisi" və 26 əməkdaşın "Fəxri turizm işçisi" döş nişanları ilə təltif olunması, ötən müddətdə 30-dan artıq əməkdaşımızın dövlət tərəfindən mükafatlandırılması, mədəniyyət xadimlərinin təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 28 yanvar 2016-cı il tarixli sərəncamları nazirliyin fəaliyyətinə verilən müsbət qiymətin bariz nümunəsidir.




10 il ərzində 1500-dən çox respublika və beynəlxalq əhəmiyyətli konsert, festival və müsabiqələr, digər rəngarəng tədbirlər gerçəkləşib. Teatr, kino, kitabxana-nəşriyyat fəaliyyəti, mədəni irs, muzey işi beynəlxalq əlaqələr və sair istiqamətlərdə mühüm işlər görülüb. Dünyanın müxtəlif ölkələri ilə mədəniyyət və turizm sahələrində 70 müqavilə imzalanıb.

Ölkənin digər dövlət qurumları ilə faydalı əməkdaşlıq şəraitində Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər qurumlar Mədəniyyət və Turizm Nazirliyinin layihələrinə hər zaman dəstək olur".





Nazirliyin daxili təhqiqat sektorunun müdiri Rəşad Əliyevin təqdim etdiyi "Mədəniyyət və Turizm Nazirliyi: 2006–2016" kitab-kataloqu sektorun bu əlamətdar tarix üçün hazırladıqları əsl töhfə oldu.










Daha sonra informasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin təşkilatçılığı ilə ərsəyə gətirilən YUNESKO-nun qeyri-maddi mədəni irsin reprezentativ və təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahılarına salınan tar ifaçılığı sənəti və kəlağayı simvolizminə həsr edilmiş sosial videoçarx nümayiş olundu.

Bu müddət ərzində nazirliyin fəaliyyətini obyektiv işıqlandıran Tural Məmmədov ("AzTV"), Dürdanə Hacıyeva (İTV), Aynurə Vəliqızı ("Lider" TV), Aygün Budaqova ("Mədəniyyət" kanalı), Tünzalə Rafiqqızı (ANS), Elman Bakuvi (ATV), Bəturə Nəbiyeva ("Space"), Yelena Sidorenko ("Xəzər" TV), Səbinə Seyidova ("Region" TV) və Yaqut Məmmədova ("CBC") fəxri fərman və diplomlarla təltif olundular. ❖

